# *FİLMOQRAFİYA*

### *Axırıncı maqın sonu (film, 1974)*

Axırıncı maqın sonu qısametrajlı bədii süjeti rejissor Cəmil Fərəcov tərəfindən 1974-cü ildə ekranlaşdırılmışdır. "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Rolları Hamlet Qurbanov, A. Qasımov və Muxtar Maniyev ifa edirlər. Filmdə bəzi vəzifəli şəxslərin özbaşınalığı tənqid olunur.

*Filmin üzərində işləyənlər*
Ssenari müəllifi: **Yusif Səmədoğlu**
Rejissor: Cəmil Fərəcov
Operator: Ələsgər Ələkbərov
*Rollarda*
Hamlet Qurbanov - Maq
A. Qasımov - ərizəçi
Muxtar Maniyev - Rüstəmov

### *Azərbaycan SSR (film, 1971)*

Azərbaycan SSR qısametrajlı sənədli filmi rejissor Zeynəb Kazımova tərəfindən 1971-ci ildə çəkilmişdir. "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Təbliğat filmi Sovet Azərbaycanının yarım əsrlik yubileyinə həsr olunmuşdur. Təbliğat filmi Sovet Azərbaycanının yarım əsrlik yubileyinə həsr olunmuşdur. Filmdə respublikamızın sənaye, kənd təsərrüfatı, elm və incəsənət sahəsində əldə etdiyi nailiyyətlər öz əksini tapmışdır. Kadrlar Bakıda, Sumqayıtda, Daşkəsəndə, Neft Daşlarında və bir sıra başqa yerlərdə çəkilmişdir.

*Filmin üzərində işləyənlər*
Ssenari müəllifi: **Yusif Səmədoğlu**
Rejissor: Zeynəb Kazımova
Operator: Vladimir Konyagin

### *Böyük tamaşa (film, 1974)*

Böyük tamaşa qısametrajlı sənədli filmi rejissor Ruslan Şahmalıyev tərəfindən 1974-cü ildə çəkilmişdir. "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Film Azərbaycan Dram Teatrının 100 illiyinə həsr edilmişdir. Film Azərbaycan Dram Teatrının 100 illiyinə həsr edilmişdir. Burada teatrın keçdiyi şərəfli yaradıcılıq yolu və görkəmli səhnə ustaları barədə söhbət gedir. Filmdə inqilabdan sonrakı ilk illərdə Azərbaycan teatrının təşəkkül tapması dövrünə xüsusi yer ayrılmışdır.

*Filmin üzərində işləyənlər:*
Rejissor : Ruslan Şahmalıyev
Ssenari müəllifi : **Yusif Səmədoğlu**
Operator : Zaur Məhərrəmov

### *Cəlil Məmmədquluzadə (film, 1966)*

Cəlil Məmmədquluzadə - Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığına həsr edilən sənədli film. Film Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük demokrat Cəlil Məmmədquluzadənin anadan olmasının 100 illik yubileyinə həsr edilmişdir.

Filmdə C. Məmmədquluzadənin sağlığında çəkilən kinokadrlar yoxdur. Lakin müəlliflər fotoşəkillər, nadir sənədlər vasitəsilə yazıçının həyat və yaradıcılığından söhbət açmış, ədibin portretini yaratmağa, onun düşüncələrini, həyata baxışını, dövrünün ictimai və siyasi hadisələrinə münasibətini əks etdirməyə çalışmışlar. Kinolentdə C. Məmmədquluzadə ilə bərabər, onun müasirləri olan Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Əliqulu Qəmküsar, Əzim Əzimzadə və digər mollanəsrəddinçilər haqqında da söhbət gedir. Burada ədibin Naxçıvan həyatı, molla məktəbində, Qori seminariyasında oxuması, mənalı həyatının

Tiflis dövrü, "Molla Nəsrəddin" jurnalının yaranması və fəaliyyəti, ədibin Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparması öz əksini tapmışdır.

*Filmin heyəti*

Film üzərində işləyənlər
Rejissor: Əli Musayev
Ssenari müəllifi: **Yusif Səmədoğlu**
Operator: Seyfulla Bədəlov
Musiqi tərtibatçısı: Emin Mahmudov
Səs operatoru: S.Dolgina
Məsləhətçi-professor: Məmməd Cəfər Cəfərov

### *Səməd Vurğun (film, 1966)*




Film Azərbaycanın xalq şairi Səməd Vurğunun həyat və yaradıcılığından bəhs edir.

*Filmin heyəti*

Film üzərində işləyənlər
Rejissor: Yalçın Əfəndiyev, Eldar Quliyev
Ssenari müəllifi: **Yusif Səmədoğlu**
Operator: Boris Vlasov
Bəstəkar: Emin Mahmudov
Səs operatoru: Şamil Kərimov

### *Foto "Fantaziya" (film, 1970)*

Filmdə sosial vəziyyəti çox ağır olan insanların mənəvi sarsıntılara məruz qalmalarından, onların mövcud şəraitdən çıxış yolu tapa bilməmələrindən bəhs olunur. Film yazıçı Yusif Səmədoğlunun eyniadlı hekayəsi əsasında ekranlaşdırılmışdır. Bu film operator Şərif Şərifovun kurs işidir.

*Filmin heyəti*

Film üzərində işləyənlər
Əsərin müəllifi: **Yusif Səmədoğlu**
Quruluşçu rejissor: Rauf Nağıyev
Ssenari müəllifi: Rauf Nağıyev
Quruluşçu operator: Şərif Şərifov
Səs operatoru: Akif Nuriyev

### *Göllərin tacı (film, 1966)*

Genişekranlı mənzərə filmidir. Film Kiçik Qafqaz dağlarında zəlzələ nəticəsində yaranmış göllər və bu göllərin ən gözəli Göygöl haqqındadır.

Festivallar və mükafatlar

1) 1967-ci ildə Tbilisidə I Zaqafqaziya və Ukrayna respublikaları filmlərinin "Prometey-67" zona kinofestivalı

2) Qısametrajlı sənədli filmə görə SSRİ Kinematoqrafçılar İttifaqının II dərəcəli Diplomu verilmişdir.

*Filmin heyəti*

Rejissor: Mirzə Mustafayev
Ssenari müəllifi: Mirzə Mustafayev
Mətnin müəllifi: **Yusif Səmədoğlu**

Operator: Faiq Qasımov
Bəstəkar: Nazim Əliverdibəyov
Səs operatoru: S.Dolgina

***Qətl günü (film, 1990)***



Bu, film-xəbərdarlıqdır. Kinolent zaman etibarilə tariximizin üç dövrünü-keçmişini, dünənini və bu gününü bir-birinə bağlayan ümumi bir mövzuya, xalqın taleyi mövzusuna həsr olunmuşdur. Keçmişdə istilaların, yeni dövrdə isə repressiyaların qurbanı olmuş şəxsiyyətlər bu taleyin mərkəzində dururlar. Nə qədər ki, xalq yaşayır, bu günahsız qurbanlarını, müqəddəslərini yad edəcək, bu günün mahiyyətini daha dərindən duya biləcəkdir.

Filmdə bütün hadisələr baş qəhrəmanın-xəstənin (Hamlet Xanızadə) taleyi ilə bilavasitə bağlıdır. Film yazıçı Yusif Səmədoğlunun eyniadlı romanı əsasında ekranlaşdırılmışdır. Kino əsəri 20 yanvar 1990-cı il Bakı faciəsi qurbanlarına ithaf edilmişdir. Film aktyor Hamlet Xanızadənin kinoda son işidir. Film aktyor Məmmədağa Məmmədovun kinoda son işidir. Filmin çəkilişlərinə Dərbənd şəhəri və Quba rayonu əhalisi kütləvi səhnələrdə köməklik göstərmişdir.

Filmi 2-3 kəlmə ilə səciyyələndirəsi olsaq, məncə ən uğurlu ifadə kimi "assosiativ film" deyiminə üz tutmaq olar; əsərdə hadisələrin zaman ölçüləri çoxplanlı olsa da bu zaman- məkan rəngarəngliyi əslində vahid kateqoriya kimi çıxış edir: yəni zamanca bir-birindən uzaq dövrlərdə baş verən hadisələr təkcə oxşar cəhətləri ilə yox, həm də assosiativ formada təsəvvürün, xəyalın imkanları hüdudunda qovuşur.

"Filmin başlıca problemi əzablar hesabına yaranan incəsənətin fəlsəfi anlamı ilə bağlıdır. Elə bir incəsənətin ki, yandırıb məhv edilsə də, küllüklər altından cücərir və bütün məhdudiyyətləri yararaq zaman sərhədlərini keçir, xalqa öz tarixi ləyaqətini qoruyub saxlamaqda kömək edən mənəvi təməl rolunu oynayır. Son illər respublikamızda baş verən dəhşətli hadisələrin ümumi mənzərəsi isə filmin "real" süjeti arasında "sərhəd" dirəkləri yoxdur. Bəlkə də bütün bunlar filmdə qaldırılan mənəvi problemlərin məntiqi davamıdır" (Gülbəniz Əzimzadə).

*Filmin heyəti*
Film üzərində işləyənlər
Ssenari müəllifi: **Yusif Səmədoğlu**
Quruluşçu rejissor: Gülbəniz Əzimzadə
Baş operator: Rafiq Quliyev
Baş rəssam: Mayis Ağabəyov
Quruluşçu rəssam: Əziz Məmmədov
Bəstəkar: Aydın Əzim Kərimoğlu(Aydın Əzimov kimi)

***Monrealda Azərbaycan günü (film, 1967)***

Reportaj-film bir neçə epizoddan ibarətdir. Filmdə Azərbaycanın görkəmli mədəniyyət, incəsənət və elm xadimlərindən, sənaye və kənd təsərrüfatı qabaqcıllarından ibarət nümayəndə heyətinin Monrealda Azərbaycan günündə iştirak etməsi, onun şəhər meri tərəfindən qəbul olunması, Monrealda Ümumdünya sərgisinin, Azərbaycan SSR gününün təntənəli açılışı, nümayəndə heyətimizin Ottava və Toronto şəhərlərinə səfəri haqqında danışılır. Eyni zamanda yeri gəldikcə filmdə Kanadanın görməli yerləri barədə də söhbət açılır.

Film üzərində işləyənlər
Ssenari müəllifi: Faiq Qasımov

Operator: Faiq Qasımov
Mətnin müəllifi: **Yusif Vəkilov**
Səs operatoru: Şamil Kərimov
Montaj üzrə rejissor: Musa Bağırov

***Səmt küləyi (film, 1973)***




Tarixi-inqilabi film Azərbaycanda inqilabi hərəkatın iştirakçısı çex İvan Prokopyeviç Vatsekin xatirəsinə həsr olunmuşdur. Vatsek filmin baş qəhrəmanı Yanın(Aloiz Şveqlik) prototipidir. Kinolent beynəlmiləlçilik ideyalarını, azadlıq uğrunda mübarizə aparan xalqların dostluğunu tərənnüm edir.

*Film üzərində işləyənlər*

Ssenari müəllifi : **Yusif Səmədoğlu**, İrji Marek, Lüdviq Toman
Quruluşçu rejissor : Eldar Quliyev
Quruluşçu operator : Yozef İllik
Quruluşçu rəssam : Kamil Nəcəfzadə, Boqumil Pokornı
Bəstəkar : Polad Bülbüloğlu
Səs operatoru : Ələkbər Həsənzadə
Rejissor : Ramiz Əliyev
Montaj edən : Tahirə Babayeva
Rejissor assistenti : Vaqif Əsədullayev

***Yeddi oğul istərəm... (film, 1970)***




Yeddi oğul istərəm - rejissor Tofiq Tağızadənin eyniadlı filmi. Film Sovet inqilabının qələbəsinə inanan və məqsəd naminə canlarından belə keçməyə hazır olan 1920-ci illərin komsomolçuları haqqında romantik hekayətdir.

*Festivallar və mükafatlar*

Filmin yaradıcılarına Azərbaycan SSR Lenin komsomolu mükafatı (1970).

Film xalq şairi Səməd Vurğunun "Komsomol poeması"nın motivləri əsasında çəkilmiş və Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 50 illiyinə ithaf olunmuşdur. Film aktyor və rəssam Elçin Məmmədovun ilk işidir. Film Tofiq Tağızadənin 7-ci tammetrajlı filmidir.

*Film üzərində işləyənlər*

Əsərin müəllifi: Səməd Vurğun
Ssenari müəllifi: **Yusif Səmədoğlu**
Quruluşçu rejissor: Tofiq Tağızadə
Quruluşçu operator: Rasim İsmayılov
Quruluşçu rəssam: Nadir Zeynalov
Bəstəkar: Xəyyam Mirzəzadə

***Polşada Azərbaycan günləri (film, 1970)***
***Dostluq məşəli (film, 1965)***